# GÜNDOĞAR

Qəzet 1931 - ci ildən çap edilir | NEFTÇALA RAYON QƏZETİ | 29 NOYABR 2024 - cü il, № 11 (68073)


## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev : "Türkiyə-Azərbaycan əlaqələri, eyni zamanda, bütün Türk dünyası üçün də mühüm rol oynayır. Biz Türk dünyasının birləşməsi, türkdilli dövlətlər arasında əlaqələrin inkişafı üçün birgə səylər göstəririk. Bizim ailəmiz Türk dünyasıdır, bizim başqa ailəmiz yoxdur".



Noyabrın 6-da Qırğızıstanın paytaxtı Bişkekdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub. Görüşdə dostluq, qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi, ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminlik bildirildi, ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## ZƏFƏRİNLƏ UCAL DAİM, AZƏRBAYCAN!



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev noyabrın 8-də Bakıda Dövlət Bayrağı Meydanında olublar. Dövlətimizin başçısı burada Azərbaycanın üçrəngli Bayrağını ucaldıb. Dövlət Bayrağı Muzeyi Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva tərəfindən 2010-cu il noyabrın 9-da açılıb. Muzey fəaliyyəti dövründə Azərbaycanın Dövlət Bayrağı ilə yanaşı, ölkəmizdə müxtəlif dövrlərdə mövcud olan xanlıqların, dövlətlərin bayraqları əyani nümayiş etdirilib və gələn qonaqlara ətraflı məlumatlar verilib. Bundan başqa, muzeydə Azərbaycanın qədim və zəngin dövlətçilik tarixini əks etdirən 400 eksponat sərgilənib. Muzeyə gələn qonaqlara hər bir tarixi nümunə haqqında təfsilatlı məlumatlar verilib. 2017-ci ildə Dövlət Bayrağı Meydanında aparılan yenidənqurma və bərpa işləri ilə əlaqədar Dövlət Bayrağı Muzeyi də təmirə bağlanıb. Təmir-bərpa işlərinin aparıldığı illər ərzində muzeyin əməkdaşları eksponatların qorunması, saxlanılması, daha da zənginləşdirilməsi istiqamətində işlər görüb, eksponat sayını 431-ə çatdırıblar.

Təmir-bərpa işlərindən sonra yeni görkəmdə və tərtibatda fəaliyyətə başlayan Dövlət Bayrağı Muzeyində 44 günlük Vətən müharibəsinə həsr olunan "Zəfər qalereyası" adlı ekspozisiya nümayiş olunur. Qalereyada Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən işğaldan azad edilmiş ərazilərdə Dövlət Bayrağının ucaldılması və Xankəndi şəhərində Vətən müharibəsindəki Qələbənin üçüncü ildönümü ilə bağlı hərbi paradın fotoları sərgilənir.

## ZƏFƏR TARİXİMİZİN 4 - CÜ İLDÖNÜMÜNDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN VƏ ŞƏHİDLƏRİN ƏZİZ XATİRƏSİ EHTİRAMLA YAD EDİLDİ





3

## Neftçala rayonunda 22 noyabr - Ədliyyə işçilərinin peşə bayramı qeyd olunub



**Neftçala rayonunda Ədliyyə işçilərinin peşə bayramının 106 ilinin tamam olması münasibətilə ədliyyə işçiləri ilə görüş keçirilib. Görüşdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, Neftçala rayon Məhkəməsinin sədri və hakimi, hüquq- mühafizə orqanlarının rəhbərləri və ədliyyə işçiləri iştirak edib. Neftçala RİH-in başçısı Mirhəsən Seyidov çıxış edərək bildirib ki, 106 yaşı qeyd edilən Azərbaycan Ədliyyəsinin keçdiyi şərəfli tarixi yola nəzər salsaq, fəaliyyətinin bütün dövrlərində, xüsusən müstəqilliyimizin yeni hüquqi erası hesab edilən 1995-ci ildən Ədliyyə sisteminin bu ali dəyərlərə daim sadiq qaldığının şahidi olarıq. Ədliyyə orqanlarının inkişafı, yenilənməsi və cəmiyyətdə nüfuz qazanması müasir Azərbaycan dövlətçiliyinin banisi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.**

6

## "Azərbaycan manipulyasiya və təzyiq deyil, səmərəli fəaliyyət, real həll variantları və ədalətli əməkdaşlığı arzulayan ölkədir".

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva: "Əziz dostlar, COP29 ölkəsi seçilmək bizim üçün böyük şərəfdir. Biz fərəhlənirik ki, Cənubi Qafqazda, Mərkəzi Asiyada və daha geniş regionda ilk COP konfransı məhz Azərbaycanda keçirilir.**

**Dünya biosferin çirklənməsi, içməli suyun qıtlığı, tez-tez baş verən quraqlıq və ərzaq təhlükəsizliyində artan risklər kimi ciddi ətraf mühit çağırışları ilə üz-üzədir. Bizim ölkəmiz də istisna deyil. Biz çay sularının, Xəzər dənizinin səviyyəsinin azalmasını müşahidə edirik və su qıtlığı təhlükəsi ilə üzləşirik.**

**Mən qeyd etmək istərdim ki, qlobal istixana tullantılarının 0,1 faizi Azərbaycanın payına düşür. Biz havaya tullantıların azaldılması və təmiz enerjiyə keçidin həyata keçirilməsi kimi milli hədəflərimizə doğru gedirik. Bərpaolunan enerji sahəsində əldə edilən nailiyyətlərin cari tempi ilə, biz 2027-ci ilə qədər quraşdırılan güclərimizin 32 faizə çatacağını, 2030-cu ilə qədər 30 faizlik azalma kimi ilkin hədəfə üç il əvvəl nail olacağımızı gözləyirik.**

**Biz, həmçinin Ermənistanın işğalından azad olunmuş Qarabağ və Şərqi Zəngəzur regionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında 2050-ci ilə qədər "xalis sıfır atılmalar zonası"nın yaradılmasına diqqət yetiririk. Əsasən Günəş və külək enerji layihələri ilə bağlı artıq fəal iş aparılır. Yaşıl enerjinin istehsalı və ixracı Azərbaycanın enerji strategiyasında prioritet təşkil edir.**

**Uzun müddətdir ki, iqlim fəaliyyəti beynəlxalq arenada ən vacib və prioritet məsələlərdən biridir. Atılmış addımlara baxmayaraq, bəşəriyyətin üzləşdiyi çağırışlar və təhdidlər günbəgün daha da ciddiləşir. Bunu nəzərə alaraq, qlobal məsələlərin həllində tətbiq olunan yanaşma və üsullara yenidən baxılması vaxtı yetişib. Bu gün, mən açıq və düzgün qeyd olunmalı digər mühüm mövzuya toxunmaq istəyirəm:**

**riyakarlıq və ikili standartlar beynəlxalq ətraf mühit gündəliyində aydın görünür...**

**Azərbaycan manipulyasiya və təzyiq deyil, səmərəli fəaliyyət, real həll variantları və ədalətli əməkdaşlığı arzulayan ölkədir!"**

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev: "COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir!"

Noyabrın 12-də Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimi keçirilib.

Azərbaycan Prezidenti İlham Əliyev Liderlər Sammitinin açılış mərasimində çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

-Hörmətli BMT-nin Baş katibi.

Hörmətli dövlət və hökumət başçıları.

Xanımlar və cənablar.

Mən sizin hamınızı Azərbaycanda salamlayıram. Qonaqlarımızın çoxu Azərbaycana ilk dəfədir ki, səfər edir. Ümid edirəm ki, onların ölkəmizlə daha yaxından tanış olmaq, onun tarixini, ənənələrini və mədəniyyətini öyrənmək imkanı olacaqdır.




Mən COP29-a aparan yolda Azərbaycana verdiyi dəstəyə görə BMT-nin Baş katibi cənab Antonio Quterreşə və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyinə təşəkkürümü bildirmək istərdim. Mən Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti, əziz qardaşım Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanı və onun bütün komandasını Dubayda COP28-də əldə olunmuş tarixi konsensus münasibətilə təbrik edirəm və Bakıda COP29 üçün hazırlıqlarda verdikləri dəstəyə görə minnətdaram.

Ötən ilin dekabrında təxminən 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a ev sahibliyi etmək şərəfi verildi. Biz bu qərarı ölkəmizə olan hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rolun dəyərləndirilməsi kimi görürük.

Azərbaycan Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkədir və bu, təkcə coğrafiya ilə bağlı deyil. Biz müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini sala bilərik. Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib.

Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin Ermənistan tərəfindən 30 illik işğalına, etnik təmizləməyə və bir milyon azərbaycanlının öz doğma torpaqlarından qovulmasına baxmayaraq, biz özünü təmin edən iqtisadiyyata və müstəqil siyasətə malik güclü ölkəni qura bildik. Dörd il öncə biz İkinci Qarabağ müharibəsində tarixi Qələbəni qeyd etdik.

Bir il əvvəl biz BMT-nin Nizamnaməsinə, beynəlxalq hüquqa və BMT-nin Təhlükəsizlik Şurasının 30 il kağız üzərində qalmış qətnamələrinə uyğun olaraq, suverenliyimizi tam bərpa etdik. Biz həmin qətnamələri özümüz icra etdik, beynəlxalq hüququ, ədaləti bərpa etdik və Ermənistanın işğalına son qoyduq. COP29-un sədri kimi Azərbaycan inkişaf etmiş və inkişaf edən ölkələr, Qlobal Cənub və Qlobal Şimal arasında ümumi anlaşmaya nail olmaq üçün əlindən gələni edəcək. Azərbaycan 120 ölkənin yekdil qərarı ilə dörd il ərzində, BMT-dən sonra ikinci beynəlxalq qurum olan Qoşulmama Hərəkatına uğurla sədrlik etdi.

Azərbaycan, həmçinin təxminən 60 ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Avropa İttifaqının 10 üzvü ilə Azərbaycan sazişlər imzalayıb və Strateji tərəfdaşlıq haqqında bəyannamələr qəbul edib. Bütün bunlar bizə düşünməyə imkan verir ki, biz iqlim dəyişmələri məsələsində fərqli mühüm iştirakçılar arasında körpülərin salınmasında çox faydalı və yardımçı ola bilərik.

Azərbaycan çoxtərəfliliyin tərəfdarıdır. Eyni zamanda, biz mədəniyyətlərarası dialoqda fəal rol oynayırıq.

BMT-nin Sivilizasiyalar Alyansı ilə birlikdə biz iki ildən bir Bakıda Mədəniyyətlərarası Forum təşkil edirik. Multikulturalizm bizim dövlət siyasətimizdir və həyat tərzimizdir.

Azərbaycan xalqı etnik və dini mənsubiyyətindən asılı olmayaraq sülh və razılıq şəraitində bir ailə kimi yaşayır.

İndi isə mən Azərbaycanın Yaşıl gündəliyi haqqında bir neçə söz söyləmək istərdim. Bərpaolunan enerjidə texniki potensialımız quruda 135 giqavat və dənizdə isə 157 giqavat təşkil edir. Ötən il BƏƏ-nin Masdar şirkəti bir regionumuzda 230 meqavatlıq Günəş enerji stansiyasının açılışını etdi. Səudiyyə Ərəbistanının "Acwa Power" şirkəti isə hazırda 240 meqavatlıq külək enerjisi stansiyasını tikir.

COP29 çərçivəsində Birləşmiş Krallığın bp şirkəti ilə 240 meqavatlıq Günəş enerjisi stansiyasının dörd il əvvəl erməni işğalından azad edilmiş Cəbrayıl rayonunda tikilməsi ilə bağlı saziş imzalanacaq. Bu layihə sayəsində dünyanın ən iri neft və qaz terminallarından biri olan Səngəçal terminalında dekarbonlaşma təmin ediləcəkdir.

Biz 2030-cu ilə qədər təxminən altı giqavatlıq Günəş, külək və hidroenerji stansiyalarının tikilməsini planlaşdırırıq. Lakin bu, tam planlarımızın hamısı deyil, 10 giqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb.

Biz, həmçinin ixrac bazarlarına diqqət yetiririk və Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji təhlükəsizliyi layihəsinin həyata keçirilməsi üçün tərəfdaşlarımızla fəal çalışırıq.

Bu, bizə Avropaya yaşıl enerjini ixrac etmək imkanı verəcək və bu kabelin texniki potensialı dörd giqavatdır. Yeri gəlmişkən, texniki-əsaslandırma işləri bu yaxınlarda bitəcək. Lakin yenə də bu, yalnız başlanğıcdır.

Yaşıl gündəliyimiz, həmçinin Azərbaycanın müxtəlif bölgələrini əhatə edir. Beləliklə, Azərbaycanın Naxçıvan, Qarabağ və Şərqi Zəngəzur regionları yaşıl enerji zonaları elan edilib və bu, ərazimizin, demək olar ki, dörddəbir hissəsidir.

İndi isə mən enerji təhlükəsizliyinin digər seqmenti haqqında bir neçə söz söyləmək istərdim. Bu da neft və qazla bağlıdır.

Anlayıram ki, bu mövzu iqlim dəyişmələrinə aid konfransda o qədər də populyar deyil. Lakin bunsuz mənim şərhlərim tam olmazdı. Sadəcə, bir informasiya ilə başlamaq istərdim. Dünyada sənaye üsulu ilə ilk neft quyusu Azərbaycanda, Bakıda 1846-cı ildə qazılıb. O, buradan uzaq yerdə yerləşmir və həmin yerə 10-15 dəqiqəlik yoldur. Dənizdə ilk neft quyusu da Azərbaycan neftçiləri tərəfindən Xəzər dənizində XX əsrin ortalarında qazılmışdır. XIX əsrdə qlobal neft hasilatının yarısı Azərbaycanın payına düşürdü.

Əgər o vaxt bəzi Qərb siyasətçiləri və media bizi neft dövləti adlandırsaydı, bu, bəlkə də anlaşılan olardı. Lakin əgər onlar indi, yəni bu gün də bizi neft dövləti adlandırırlarsa, bu, ədalətsizlikdir və yalnız siyasi mədəniyyət və biliklərin çatışmamasından xəbər verir. Bu gün Azərbaycan qlobal neft hasilatında 0,7 faiz, qlobal qaz hasilatında isə 0,9 faiz paya malikdir. Amma dünyada bir nömrəli neft və qaz hasilatçısı olan, Azərbaycandan 30 qat artıq neft hasil edən ölkənin yalan xəbər mediası bizi neft dövləti adlandırır.

Yaxşı olardı ki, ən azı onlar özlərinə və Azərbaycandan 10 dəfə artıq neft hasil edən özlərinin qonşuluğundakı ölkəyə baxsınlar. Azərbaycanın qlobal qaz atılmalarındakı payı cəmi 0,1 faizdir.

Mən bu rəqəmləri auditoriyamızın diqqətinə çatdırmalıyam, çünki Azərbaycan COP29-a ev sahibi seçildikdən dərhal sonra biz əlaqələndirilmiş və yaxşıca təşkil olunmuş qarayaxma və böhtan kampaniyasının hədəfinə çevrildik.

Qərbin yalan xəbər mediası, dırnaqarası müstəqil QHT-ləri və bəzi siyasətçiləri sanki ölkəmiz haqqında dezinformasiya və səhv məlumatın yayılmasında yarışa çıxıblar. Neftimizin olmasında bizi ittiham etmək bir növ Bakıda il ərzində 250-dən artıq günəşli günün olmasında bizi suçlamağa bənzəyir.

Ölkələrə qiymət başqa meyarlara görə verilməlidir. Məsələn, Azərbaycanda işsizliyin səviyyəsi 5,4 faiz, yoxsulluğun səviyyəsi 5,2 faizdir. Yaşıl gündəliyimizə gəldikdə, mən planlarımızı artıq təsvir etdim. Ölkələr öz xarici borcunu necə idarə edirlər? Azərbaycanın xarici borcu ÜDM-in cəmi 7,5 faizini təşkil edir.

Beləliklə, ölkə göstəricilərinin qiymətləndirilməsində əsas götürülməli bu və bir çox digər mühüm meyar bunlardır, Tanrının bəxş etdiyi təbii sərvətlər meyar kimi götürülməli deyil.

Mən bir neçə ay bundan əvvəl söylədim: indi mənə hücum çəkmək istəyənlərin hamısı, – mən beynəlxalq medianı nəzərdə tuturam, – mənim yalnız Tanrının bəxş etdiyi hədiyyə sözlərimə iqtibas edirlər.

Bu gün isə mən bu auditoriyada, burada təkrar etmək istəyirəm: Bu, Tanrının bəxş etdiyi hədiyyədir. Hər bir təbii sərvət – istər neft, qaz, külək, günəş, qızıl, gümüş və mis – bunların hamısı təbii sərvətlərdir. Ölkələr onların olmasına görə günahlandırılmalı və bazarda onlara tələbatın olması səbəbindən onları bazara çıxardıqlarına görə suçlanmalı deyillər.

İnsanlara onlar lazımdır. Bir sözlə, mesajım belədir. COP29-un sədri kimi, əlbəttə, biz yaşıl keçidin güclü carçısı olacağıq və bunu edirik, lakin, eyni zamanda, biz realist olmalıyıq.

Digər ittiham məsələsinə gəldikdə, iki il əvvəl Azərbaycan və Avropa Komissiyası enerji sahəsində strateji tərəfdaşlıq bəyannaməsinə imza atdılar. Lakin bu, bizim ideyamız deyildi. Bu, Avropa Komissiyasının təklifi idi. Avropa Komissiyasının sədri bu sənədi imzalamaq üçün iki il öncə Bakıya gəldi, çünki geosiyasi vəziyyətin dəyişməsi səbəbindən onlara bizim qaz lazım idi. Onlar bizdən yardım xahiş etdilər. Biz razılaşdıq. Əgər yardımımıza ehtiyac varsa, biz hər zaman kömək etməyə hazırıq. Dedik, yaxşı, biz enerji təhlükəsizliyində Avropaya kömək edəcəyik. İki il əvvəl həmin bəyannaməni imzalayanda qazımızı alan ölkələrin, yəni Avropa ölkələrinin sayı iki idi. İndi isə səkkiz ölkə alır.

Azərbaycan qazına çıxışı olan on ölkədən səkkizi Avropada yerləşir. Avropa Komissiyası, həmçinin bizdən xahiş edib ki, biz qaz təchizatını 2027-ci ilə qədər iki dəfə artıraq. Bu, Avropa Komissiyasının sədri və mənim tərəfimdən iki il öncə Bakıda imzalanmış bəyannamədə əks olunub. Əfsuslar olsun ki, ikili standartlar, digər ölkələrə dərslər vermək adəti və siyasi riyakarlıq bəzi qərb ölkələrindəki bir sıra siyasətçilər, dövlət nəzarətində olan QHT-lər, yalan xəbər mediası üçün fəaliyyət metoduna çevrilib.

Mənim sonuncu mesajım təxminən bir ildir ki, boykotu təşviq edən dairələrədir. Onlar əllərində olan bütün alətlərdən istifadə etdilər ki, Bakıda COP29-u boykot kampaniyası başlansın. Onlara pis xəbər var: bizim 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçımız var. Onların sırasında 80 prezident, vitse-prezident və Baş nazirlər var.

**Beləliklə, dünya Bakıya toplaşıb və biz bütün dünyaya deyirik: Azərbaycana xoş gəlmisiniz!**

**Sağ olun.**

# "8 NOYABR --- ZƏFƏR GÜNÜ"







**"8 Noyabr Zəfər Günü" ilə əlaqədar tərtib olunan Tədbirlər Planına əsasən "Zəfər Günü" ərəfəsində 1-8 noyabr tarixlərində Neftçala Rayon İcra Hakimiyyətinin dəstəyi ilə və aidiyyəti qurumların birgə təşkilatçılığı ilə rayonda silsilə tədbirlər təşkil olunub.**
**Tədbirlər Planı çərçivəsində "8 Noyabr-Zəfər Günü"nə həsr olunan "Zəfər Kuboku" mini futbol turniri, "Nə? Harada? Nə zaman?" intellektual oyunu formatında bilik müsabiqəsi, hərbi-təlim mərhələlərindən ibarət "Döyüş Hərəkətlərini Öyrənirik" adlı hərbi vətənpərvərlik mövzusunda tədbir, "Qəhrəmanlığa Yazılan Tarix" adlı rəsmi və bədii hissədən ibarət tədbir, şəhər, qəsəbə və kənd inzibati ərazi dairələri üzrə nümayəndəliklər arasında futbol idman növü üzrə rayon birinciliyi keçirilib.**
**Keçirilən silsilə tədbirlərin yekunu olaraq Neftçala Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə 8 Noyabr- Zəfər Gününə həsr olunmuş "Zəfərin mübarək, Vətən!" adlı bədii-kütləvi tədbir təşkil olunub.**
**Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, Yeni Azərbaycan Partiyası Neftçala rayon təşkilatının, Rayon Ağsaqqallar Şurasının, hüquq mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri və kollektivləri, şəhid ailələri, qazilər, veteranlar və rayon sakinləri iştirak ediblər.**
**Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanan tədbir izləyicilər tərəfindən böyük sevinclə qarşılanıb.**
**Böyük coşqu ilə keçirilən bayram konsertində respublikamızın Əməkdar artistləri S. Şərifəliyevanın, C. Qurbanovun, tanınmış və sevilən incəsənət ustaları V. Şərifovanın, N. Ordubadlının, F. Sadiqin, M. Kəngərlinin, M.Mahmudovun, D.Ələkbərovanın, S. Ruqiyevin ifasında vətənpərvərlik mövzularında rəngarəng mahnılar səsləndirilib.**

# 32 İL İNKİŞAF YOLUNDA - YENİ AZƏRBAYCAN PATİYASI!







**Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, YAP Neftçala rayon təşkilatının sədri Ülvi Fərzəliyev və aparat işçiləri, hüquq mühafizə orqanlarının rəhbərləri, ərazi partiya təşkilatlarının sədrləri, partiyanın veteran və fəal üzvləri iştirak ediblər.**
**Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü, konstitusiya quruluşu uğurunda canından keçən qəhrəman şəhidlərimizin xatirəsinin yad edilməsi ilə başlayan tədbirdə Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli, eyni zamanda qətiyyətlə silahlanmış inamlı yol ətraflı qeyd edildi. Bildirildi ki, YAP yarandığı gündən xalqın inamının ifadəçisi olaraq onunla zəfər sevincinə qədər pillə-pillə irəlilədi. Bu gün azad olan torpaqlarımızda aparılan hər bir yeni quruculuq işləri ilə, Azərbaycanı dünyaya tanıdan, bir daha düşüncələrdə vətənimizi yaşadan beynəlxalq tədbirlərin keçirilməsi ilə bütün dünyaya gələcək yolunu işıqlandıran YAP və onun liderinə, yaradıcısına olan böyük etimad heç zaman azalmayacaqdır.**
**Tədbirdə çıxış edən YAP Neftçala rayon təşkilatının sədri Ülvi Fərzəliyev Yeni Azərbaycan Partiyasının Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlarla üz-üzə qaldığı bir dövrdə ölkə ziyalılarının təşəbbüsü və fəal iştirakı ilə yarandığını qeyd etdi.**
**Partiya 32 ildir ki, ölkəmizin ictimai-siyasi həyatının lokomotivi rolunda çıxış edir: "Qısa müddət ərzində ümumxalq partiyasına çevrilmiş Yeni Azərbaycan Partiyası yarandıqdan bu günə qədər çox böyük, şərəfli və uğurlu yol keçmişdir. Ulu Öndər Heydər Əliyevin böyük ümidlərini, xalqımızın inamını doğruldan Prezident İlham Əliyev YAP - nın uğurlu inkişafının təminatçısı olmuşdur.**
**Tədbirdə çıxış edən partiyanın veteran üzvü Oqtay Kərimov, ərazi partiya təşkilatının sədr müavini Samir Cəfərov, partiya sıralarına yeni daxil olan gənc müəllimlər adından Nazilə Əhmədli çıxış etdilər. Qeyd olundu ki, Yeni Azərbaycan Partiyasının yaradılması müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynayıb. Prezident İlham Əliyevin partiyaya sədr seçilməsindən sonra isə YAP inkişafının yeni mərhələsinə qədəm qoyub. Dövlətimizin başçısının rəhbərlik etdiyi partiyanın cəmiyyətdə böyük inam və etimada sahib olduğu, 44 günlük Vətən müharibəsində qazanılan Zəfərin partiyanın nüfuzunu daha da yüksəltdiyi qeyd olundu.**
**Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov çıxışında Ulu Öndər Heydər Əliyevin Yeni Azərbaycan Partiyasını "Dünənin, bu günün və gələcəyin partiyası" kimi dəyərləndirdiyini vurğuladı. Bu tezis bütün dövrlərdə öz aktuallığını qoruyaraq Yeni Azərbaycan Partiyasının fəaliyyətinə bələdçilik edir. 2003-cü ildən Ulu Öndər Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası daha da inkişaf etdi, regionun aparıcı siyasi təşkilatına çevrildi. Hazırda partiyanın sıralarında 800 minə yaxın üzv olması Heydər Əliyev ideyalarına sədaqətin göstəricisidir. RİH başçısı xüsusi qeyd edib ki, artıq tarixi Zəfərimizin reallıqlarını yaşayırıq. Bu reallıqlar bütün sahələrdə yeni uğurlu islahatların həyata keçirilməsini bir zərurət kimi qarşıya qoyurdu. Bu baxımdan Yeni Azərbaycan Partiyasının tarixi Zəfərimiz ruhunda keçirilən VII qurultayı yeni hədəflərin təqdimatı hesab oluna bilər.**
**Diqqətə çatdırıldı ki, Yeni Azərbaycan Partiyasının VII qurultayının keçirilməsi məhz ölkəmizin ictimai-siyasi həyatının əlamətdar hadisəsi olmaqla, partiya fəaliyyətinin inkişafının həm forma, həm də məzmun etibarilə yeni mərhələsinə qədəm qoyması kimi qiymətləndirmək olar. Həmin qurultayda dövlət başçısı, YAP -nın sədri İlham Əliyevin "Yeni Azərbaycan Partiyası bundan sonra da ölkəmizdə bütün proseslərin mərkəzində olacaq" çağırışı qarşıdakı dövrün aydın mənzərəsini nümayiş etdirir.**
**Tədbirdə Yeni Azərbaycan Partiyiyasının 32 illik fəaliyyət xronikasını özündə əks etdirən videoçarx nümayiş olundu.**
**Tədbir Neftçala Rayon İcra Hakimiyyəti və YAP Neftçala rayon təşkilatı tərəfindən bir qrup şəxsin "Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 32-ci ildönümü və rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə" Fəxri Fərmanla təltif olunması və YAP-nın sıralarına yeni qəbul edilən üzvlərə vəsiqələr təqdim olunması ilə başa çatdı.**
**YAP-nın sıralarında bütün gücü, amalı, vətən sevgisi ilə çalışan hər bir partiya üzvünə, eyni zamanda Neftçala Rayon Yeni Azərbaycan Partiyasının bütün əməkdaşlarına fəaliyyətlərində uğurlar diləyirik.**

# KƏND TƏSƏRRÜFATI İŞÇİLƏRİ GÜNÜ QEYD OLUNDU

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 9 oktyabr tarixli Fərmanı ilə hər il noyabrın 1-i ölkəmizdə "Kənd Təsərrüfatı İşçiləri Günü" kimi qeyd olunur. Neftçala rayonunda da Kənd Təsərrüfatı İşçiləri Günü geniş formada qeyd olunub.



Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, DAİM-in, Neftçala Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin rəhbərləri, onların əməkdaşları, könüllülər və fermerlər iştirak edib.
İlk öncə tədbir iştirakçıları Neftçala şəhərində ucaldılan Ulu Öndər Heydər Əliyevin əzəmətli heykəli ziyarət olunub, tər gül dəstələri düzülüb və ehtiramla yad olunub.
Neftçala RİH-in başçısı Mirhəsən Seyidov Neftçala DAİM-in inzibati binasında yaradılan şəraitlə tanış olub.
Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların ruhu bir dəqiqəlik sükutla yad olunub.
Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov çıxış edərək bildirib ki, Ulu Öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra bütün sahələrdə olduğu kimi kənd təsərrüfatı sahəsinədə Ulu Öndər tərəfindən xüsusi diqqət və qayğı göstərilib. Bu sahədə çalışan zəhmətkeşlər xüsusi olaraq qiymətləndirilib. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident cənab İlham Əliyevdə ölkəmizin inkişafında xüsusi xidməti olan kənd təsərrüfatı işçilərinin əməyi hər zaman qiymətləndirib, onlarla görüşüb, səsləndirdikləri bütün məsələlər həssaslıqla yanaşıb. Bu gün ölkəmizdə olduğu kimi rayonumuzdada kənd təsərrüfatı sahəsinə olan diqqət, qayğı bütün fermerlər və zəhmətkeşlər tərəfindən hiss olunur, kənd təsərrüfatı sahəsinə maraq hər il artmaqda davam edir. RİH- başçısı Kənd Təsərrüfatı İşçiləri Günü münasibətilə zəhmətkeşləri əbrik edib və onlara uğurlar arzulayıb.
Tədbirdə çıxış edənlər Neftçala DAİM-in direktoru əvəzi Elsevər Əsədov, Neftçala Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin rəisi Təbriz Eyyubov və digər natiqlər Ümummilli Lider Heydər Əliyevin siyasi iradəsi və böyük zəhməti nəticəsində həm keçmiş sovetlər dönəmində, həm də müstəqillik dövründə ölkəmizdə bütün sahələrində olduğu kimi aqrar sahədə də ciddi islahatlar aparılıb, kənd təsərrüfatının dayanıqlı inkişafı üçün möhkəm baza yaradılıb. Hal- hazırda Prezident cənab İlham Əliyev tərəfindən davam etdirilən uğurlu aqrar siyasət nəticəsində kənd təsərrüfatı sahəsi dinamik inkişafını qoruyub saxlayır.
Tədbirin sonunda Kənd Təsərrüfatı İşçiləri Günü münasibətilə bir qrup kənd təsərüfatı qabaqcılı



fəxri fərmanlarla təltif olunub.
Neftçala Rayon İcra Hakimiyyətinin kollektivi və rayon ictimaiyyəti adından kənd təsərrüfatı işçiləri təbrik edirik, peşə fəaliyyətlərində uğurlar arzulayırıq.

# "NƏ? HARADA? NƏ ZAMAN?

***"Zəfər günü" münasibətilə Neftçala rayonunda silsilə tədbirlər keçirilib. Qeyd olunan tədbirlər çərçivəsində 04 noyabr 2024-cü il tarixində Neftçala Rayon İcra Hakimiyyətinin dəstəyi, Şirvan-Salyan Regional gənclər və idman İdarəsinin Neftçala rayonu üzrə Gənclər və İdman sektoru və Neftçala Peşə Məktəbi publik hüquqi şəxsin birgə təşkilatçılığı ilə Neftçala Peşə Məktəbinin tələbələri arasında "8 Noyabr-Zəfər Günü"nə həsr olunan "Nə? Harada? Nə zaman?" intellektual oyunu formatında bilik müsabiqəsi keçirilib.***
***Tədbirdə Neftçala Rayon İcra Hakimiyyəti başçısı aparatının aparıcı məsləhətçisi Esmira Məmmədzadə, Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin Neftçala rayonu üzrə gənclər və idman sektorunun, Neftçala Peşə Məktəbi publik hüquqi şəxsin rəhbərləri, təşkilatçı qurumların əməkdaşları, gənclər iştirak edib.***
***İlk öncə xalqımızın ümummilli lideri,Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya qurluşunun müdafiəsi zamanı şəhid olan hərbi***



***qulluqçuların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***
***Çıxışçılar - Neftçala Rayon İcra Hakimiyyəti başçısı aparatının aparıcı məsləhətçisi Esmira Məmmədzadə, Neftçala rayon gənclər və idman sektorunun müdiri Araz Əhmədov, Neftçala Peşə Məktəbinin direktoru Tarıyel Yaqubov "Zəfər günü" münasibətilə iştirakçıları təbrik edib, yarışın məqsədi və əhəmiyyəti haqqında ətraflı məlumat verərək iştirakçılara uğurlar arzulayıblar.***
***Gərgin mübarizə şəraitində keçən yarışda hər birində altı üzv ümumilikdə 42 nəfər tələbə olmaqla 7 komanda iştirak edib. Yekunda, I yerdə "Qafqaz qartalı" komandası, II yerdə "Zəfər" komandası, III yerdə isə "Cəsurlar" komandası qərarlaşıb.***
***Tədbirin sonunda qalib komandalar kubok və hədiyyələrlə mükafatlandırılıb.***
***Qalib komandaları təbrik edir, onlara gələcək fəaliyyətlərində uğurlar arzu edirik.***

# 8 NOYABR ZƏFƏR GÜNÜDÜR!



***Neftçala rayonunda Zəfər Gününə həsr edilmiş tədbirlər çərçivəsində 06 noyabr 2024-cü ildə Camal İsmayılov adına Neftçala rayon Uşaq-İncəsənət məktəbində konsert proqramı təşkil edilib.***
***Tədbirdə Neftçala Rayon İcra Hakimiyyəti başçısı aparatının aparıcı məsləhətçisi Esmira Məmmədzadə, C.İsmayılov adına Neftçala rayon Uşaq-İncəsənət məktəbinin rəhbərliyi və əməkdaşları, şəhid ailələri, rayonda fəaliyyət göstərən müxtəlif idarə, müəssisə, təşkilatların əməkdaşları, valideynlər iştirak edib.***
***Xalqımızın ümummilli lideri, Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya qurluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Uşaq-İncəsənət məktəbinin xor kollektivinin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.***
***Tədbirdə çıxış edən Neftçala Rayon İcra Hakimiyyəti başçısı aparatının aparıcı məsləhətçisi Esmira Məmmədzadə, Vətən Müharibəsi Qəhrəmanı Camal İsmayılovun anası Filarə İsmayılova, Uşaq-İncəsənət məktəbinin direktoru İlqar Rəhimov 2020-ci ilin sentyabrın 27-dən başlayan, 44 gün davam edən və işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən Müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildiyini bildirərək qarşıdan gələn Zəfər Günü münasibəti ilə tədbir iştirakçılarını təbrik edib, Neftçala rayon Uşaq-İncəsənət məktəbinin şagirdlərinə xoş arzularını bildiriblər.***

# Neftçala və Biləsuvar Günəş Elektrik stansiyalarının maliyyələşdirilməsi ilə bağlı müqavilələr imzalanıb




COP29 çərçivəsində "SOCAR Green" MMC, Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti, Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD), Asiya İnkişaf Bankı (ADB) və Asiya İnfrastruktur və İnvestisiya Bankı (AIIB) arasında Azərbaycanda iki günəş enerjisi layihəsinin maliyyələşdirilməsi üzrə sənədlər imzalanıb.

EBRD, ADB və AIIB tərəfindən maliyyələşdiriləcək 315 MVt-lıq Neftçala və 445 MVt-lıq Biləsuvar günəş enerjisi layihələrinin ümumi dəyərinin 670 milyon dollar təşkil edəcəyi gözlənilir.

2027-ci ildə istismara veriləcək stansiyalarda illik təxminən 1,7 milyard kilovat-saatdan çox yaşıl enerji istehsalı proqnozlaşdırılır ki, bu da illik 380 milyon kubmetr həcmində təbii qaza qənaət, eyni zamanda, atmosferə atılan karbon emissiyasının 830 min ton azaldılması deməkdir.

İmzalanma mərasimində çıxış edən Energetika naziri qeyd edib ki, "760 MVt gücündə Günəş elektrik stansiyalarının maliyyələşdirilməsi üzrə yekun razılaşma, Azərbaycanın bərpaolunan enerji sektorundakı hədəflərinə çatmaq yolunda əlamətdar bir nailiyyətdir. Bu razılaşma, Azərbaycanın "Masdar" şirkəti ilə uğurlu tərəfdaşlığını və investolar, beynəlxalq maliyyə qurumlarının ölkəmizə olan etimadını nümayiş etdirir. Günəş elektrik stansiyaları ölkəmizin enerji keçidini sürətləndirmək, karbon emissiyalarını azaltmaq və yaşıl enerji ölkəsi olmaq məqsədinə mühüm töhfə verəcək".

"Masdar" şirkətinin icraçı direktoru Məhəmməd Cəmil Əl-Rəmahi isə bildirib ki, "Azərbaycanda bu iki böyük günəş enerjisi layihəsinin maliyyələşdirilməsi ilə bağlı müqavilələr imzalamaqdan çox məmnunuq. Bu, Qaradağdakı ölkənin ən böyük Günəş elektrik stansiyasının tamamlanmasından sonra mühüm bir addımdır. Azərbaycan bazarı bizim üçün strateji əhəmiyyət daşıyır və ölkənin ambisiyalı təmiz enerji hədəflərinə çatmasını dəstəkləməyə sadiqik".

Qeyd edək ki, bu ilin 4 iyun tarixində Bakı Enerji Həftəsi çərçivəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə stansiyaların təməlqoyma mərasimi keçirilib.

----------

## Rəqəmsal İnkişaf və Nəqliyyat naziri Neftçala rayonunda vətəndaşları qəbul edib



**İnkişaf və Nəqliyyat naziri Rəşad Nəbiyev 7 noyabr tarixində Neftçala şəhərində Hacıqabul, Salyan, Biləsuvar, Neftçala rayonları və Şirvan şəhər sakinlərini qəbul edib.**

**Qəbuldan öncə Ulu Öndər Heydər Əliyevin Neftçala şəhərinin mərkəzində ucaldılan əzəmətli heykəli ziyarət olunub, önünə gül dəstələri düzülüb və ruhu ehtiramla yad olunub. Vətəndaşların nəqliyyat, telekommunikasiya və poçt xidmətləri ilə bağlı müraciətlərinə baxılıb. Qaldırılan məsələlərin bir hissəsi yerində öz müsbət həllini tapıb. Digər qisminin araşdırılması ilə bağlı nazirliyin müvafiq qurumlarına tapşırıqlar verilib.**

## "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa

**Əlavə – "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu**

**Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 3-cü bəndini rəhbər tutaraq qərara alır:**

**"Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 689 (Cild I)**

**Əlavə – "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı" yeni redaksiyada verilsin (əlavə olunur).**

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri,**
**18 oktyabr 2024-cü il**

--------------------------------

**Qanuna əsasən Neftçala rayonunda aşağıdakı ərazilər üzrə bələdiyyələr formalaşacaqdır:**

**1. Aşağı Surra bələdiyyəsi Aşağı Surra kəndi**

**2. Həsənabad bələdiyyəsi Həsənabad qəsəbəsi və Dalğalı, Haqverdilər, Kürdili, Qızqayıtdı, Mikayıllı, Sahiloba, Sarıqamış, Yeniqışlaq kəndləri**

**3. Xıllı bələdiyyəsi Xıllı qəsəbəsi və Ballıcalı, Boyat, Dördlər kəndləri**

**4. Xol Qarabucaq bələdiyyəsi Dördlər, Xəzər, Xol Qarabucaq və Xoltəzəkənd kəndləri**

**5. Xol Qaraqaşlı bələdiyyəsi Xanməmmədli, Xol Qaraqaşlı, Qaçaqkənd, Qazaxbərəsi, Qırmızıkənd, Mürsəqulu və Ramazanlı kəndləri**

**6. Qaraqaşlı bələdiyyəsi Abasallı, Bala Surra, Beştalı, Cəngan, Ərəbqardaşbəyli, İkinci Qaralı, Qaraqaşlı, Mirzəqurbanlı, Pirəbbə, Şorkənd, Tatarməhlə, Uzunbabalı və Yuxarı Qaramanlı kəndləri**

**7. Qədimkənd bələdiyyəsi Astanlı, Aşağı Qaramanlı, Birinci Qaralı, Kür Qarabucaq və Qədimkənd kəndləri**

**8. Neftçala bələdiyyəsi Neftçala şəhəri, Bankə qəsəbəsi və 1 №-li Mayak,**

**2 №-li Mayak, Kürkənd, Qırmızı Şəfəq, Sübh, Şirvanlı,**

**Yenikənd kəndləri.**

## YENİ AZƏRBAYCAN PARTİYASININ NEFTÇALA RAYON TƏŞKİLATININ ƏMƏKDAŞLARI KÜRQARABUCAQ KƏNDİNDƏ GÖRÜŞ KEÇİRDİ



**Kürqarabucaq kənd sakinləri ilə görüş keçirilib. Görüşdə YAP Neftçala rayon təşkilatının sədri Ülvi Fərzəliyev və aparat işçiləri, kəndin ictimaiyyət nümayəndələri iştirak ediblər. İlk olaraq yerli təşkilatın sədri Ülvi Fərzəliyev görüşün mahiyyəti barədə məlumat verib. Bildirib ki, ideoloji işin təşkilində bu kimi görüşlər mühüm əhəmiyyət kəsb edir. Müzakirələr və fikir mübadiləsi ilə davam edən görüşdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 20 il ərzində əldə olunan tarixi nailiyyətlərdən, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasından, ölkəmizin qlobal gücə çevrilməsindən bəhs olunub. Azərbaycanın 200 ölkənin yekdil dəstəyi ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessisyasına uğurla ev sahibliyi etməsi və mühüm nəticələrə nail olunması vurğulanıb. Qeyd olunub ki, bütün uğurlarımızın müəllifi Ulu Öndər Heydər Əliyev və onun siyasi kursunu layiqincə davam etdirən möhtərəm Prezident İlham Əliyevdir. Xalqımızın bu siyasi xəttə sadiqliyi və artan dəstəyi bir neçə ay bundan əvvəl baş tutan növbədənkənar prezident seçkilərində bir daha öz təsdiqini tapdı.**

**Kənd sakinləri də öz növbəsində keçirilən görüşə görə təşəkkür edib, davamlı xarakter almasını arzu ediblər.**

*"GÜNDOĞAR"*

# PAYIZ - QIŞ MÖVSÜMÜNDƏ YANĞIN TƏHLÜKƏSİZLİYİ QAYDALARINA DİQQƏT ARTIRILMALIDIR

Yanğınların statistikası göstərir ki, payız-qış mövsümündə havaların soyuması, insanların istilik sisteminə tələbatlarının yaranması və bu məqsədlə elektrik və qaz təsərrüfatından daha çox istifadə etməsi nəticəsində yanğınların sayı yaz-yay dövrü ilə müqayisədə artır. Dünyanın hər yerində olduğu kimi respublikamızda da payız-qış mövsümündə bu artım qeydə alınır və yanğınların çox hissəsi yaşayış sektorunun payına düşür. Çox təəssüf ki, bu hadisələrin qarşısını hələ tamamilə almaq mümkün deyil. Ancaq yanğınların sayını minimuma endirmək, hadisə zamanı insan itkisinin qarşısını almaq mümkündür və Dövlət Yanğın Nəzarəti Xidmətinin qarşısında duran əsas vəzifə budur.

Dövlət Yanğın Nəzarəti Xidməti hər il payız-qış mövsümünün başlanması ilı əlaqədar müxtəlif qabaqlayıcı tədbirlər həyata keçirir.

Baş verən ən faciəli yanğın hadisəsi insan tələfatı ilə nəticələnən yanğınlardır və təbii ki, bu da mənzillərdə baş verən yanğınlar zamanı qeydə alınır. Mütəmadi olaraq əhali arasında təbliğat xarakterli söhbətlər aparılsa da, kütləvi informasiya və təşviqat vasitələrindən istifadə edərək maarifləndirmə işləri görülsə də vətəndaşlarımız eyni səhvləri yenidən buraxır, beləliklə də yeni-yeni yanğınlara, digər fəlakətlərə yol açırlar. Nəticədə isə ağır xəsarətlərlə xəstəxanaya düşür və ya həyatlarını itirirlər. Odur ki, hündürmərtəbəli binalara, yaşayış evlərinə baxışların keçirilməsi, əhali arasında yanğın-texniki biliyin artırılması məqsədilə təbliğat xarakterli işlərin görülməsi vacibdir və bu məsələ daimi olaraq müəssisə rəhbərlərinin diqqətində olmalı, Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğın Nəzarəti Xidmətinin əməkdaşları tərəfindən verilmiş göstəriş və tövsiyələrin icrası ilə bağlı müvafiq tədbirlər görməlidirlər.

Payız-qış mövsümünün başlanması ilə əlaqədar hər il Dövlət Yanğın Nəzarəti Xidmətinin əməkdaşları mənzillərdə baş verən yanğınların və insan tələfatının qarşısını almaq məqsədilə ərazi və regionlarda yanğın təhlükəsizliyinin artırılması ilə bağlı təbliğat xarakterli tədbirlər həyata keçirirlər.

Yanğınların təhlilinin nəticəsi göstərir ki, mənzillərdə yanğınların baş verməsinin əsas səbəbi elektrik və qaz cihaz və qurğularının quraşdırılması və istismarı zamanı yanğın təhlükəsizliyi qaydalarının pozulması, odla və qaynaq vasitəsilə işlər görülərkən ehtiyatsızlıq, uşaqların odla dəcəlliyi və s. olmuşdur. Ona görə də respublika ərazisində payız-qış mövsümü ilə əlaqədar havaların soyumasını nəzərə alaraq, yanğınların baş verməsinə şərait yaradan amillərin aradan qaldırılması istiqamətində qabaqlayıcı tədbirlərin gücləndirilməsi məqsədilə yaşayış binalarındakı mənzillərdə sakinlər arasında maarifləndirmə işləri aparılmış, işıqlandırmaq üçün açıq alovdan, yəni şam və məşəldən istifadə edilməsinin, sobanın üzərində və yanında paltar qurudulmasının, kustar üsulla düzəldilmiş elektrik avadanlıqlarından və cihazlarından istifadənin, bacaların yaxınlığındakı çardaqlarda tez alışan əşya və məişət qaz balonlarının saxlanılmasının, nasaz qaz cihazlarının istismarının, uşaqların odla dəcəlliyinin real yanğın təhlükəsi yaratdığı əhalinin nəzərinə çatdırılmışdır.



Eyni zamanda bu məqsədlə sakinlərə Xidmət tərəfindən hazırlanmış "Vətəndaşların nəzərinə" adlı yaddaş vərəqələrinin paylanması, binaların lift kabinələrinə "Mənzildə yanğın zamanı davranış qaydaları", "Dəm qazı təhlükəsindən qorunma qaydası" adlı stikerlər yerləşdirilməsi təmin edilmişdir. Bu işə mənzil-kommunal istismar sahələrinin, qaz və elektrik enerjisinin istismarı idarələrinin, rayon bələdiyyə və icra hakimiyyətlərinin nümayəndələri də cəlb edilmişdir. Son zamanlar qaz cihazlarının istismarı zamanı əhali arasında dəm qazından zəhərlənmə halları qeydə alınmaqdadır. Müəyyən olunub ki, bu hadisələrin əksəriyyəti vətəndaşların təhlükəsizlik qaydalarına riayət etməməsi səbəbindən baş verir. Dəm qazından zəhərlənmə halı yanğın olduqda, sobanın qapağı erkən bağlandıqda, qarajda, qapalı məkanda avtomobil mühərriki işlədikdə baş verir. Mənzillərdə isə dəm qazından zəhərlənmə təhlükəsi əksər hallarda evi qızdırıcı cihazlarla qızdırarkən və ya hamam otağında baş verir. Qaz cihazlarından təlimata uyğun düzgün istifadə edilməməsi səbəbindən isə insan itkisi və xəsarət alması ilə nəticələnən partlayış, yanğın, zəhərlənmə kimi bədbəxt hadisələr də baş verir. Bu cür fövqəladə halların baş verməməsi üçün yaşayış sahələrində standartlara uyğun olmayan qaz cihazlarından istifadə etmək qadağandır. Hər bir məişət qaz cihazının təhlükəsizlik qurğuları daim saz vəziyyətdə olmalı və onlardan istifadə zamanı müəyyən edilmiş təhlükəsizlik qaydalarına tam riayət edilməlidir!

Əhali ilə görüşlərdə yanğına qarşı təbliğat apararkən onların nəzərinə çatdırılmalıdır ki, yaşayış binalarının bloklarında və mərtəbələrində quraşdırılmış paylayıcı elektrik lövhələrinin saz vəziyyətdə olmasına, "Elektrik qurğularının quraşdırılması qaydaları" və "Yanğın təhlükəsizliyi qaydaları"nın tələblərinə uyğun olaraq istismar edilməsinə, elektrik lövhələrində yalnız standarta uyğun elektrik qoruyucularından istifadə olunmasına diqqət yetirilməlidir. Həmçinin çardaqların daim təmiz saxlanılması, taxta konstruktiv elementlərinin odadavamlı məhlulla hopdurulması, mövcud pəncərələrin şüşələnməsi, çardağa çıxış qapılarının, eləcə də yanğına qarşı divarlarda və ventilyasiya kameralarında quraşdırılmış qapıların bağlı və kip vəziyyətdə olması təmin edilməlidir. Yaşayış binalarının zirzəmiləri daim təmiz saxlanılmalı, giriş qapıları bağlı vəziyyətdə olmalı və açarlar birinci mərtəbədə yerləşən mənzillərdən birində və yaxud komendatda olmalıdır. Binaların birinci mərtəbəsində və zirzəmisində fəaliyyət göstərən obyektlərdə qaz cihazlarından istifadəyə yol verilməməlidir.

Yaşayış binalarının birinci mərtəbəsində layihə üzrə nəzərdə tutulmuş yanğın keçidlərinin açıq vəziyyətdə saxlanılmasına, başqa məqsədlər üçün istifadə edilməməsinə daim diqqət yetirilməlidir. Keçidlərin müəyyən təşkilat və idarələr, sakinlər tərəfindən tutulmasına imkan verilməməlidir. Yaşayış evlərində elektrik və qaz cihazlarının təhlükəsiz istifadə olunmasına, tüstü boru və bacalarının düzgün quraşdırılmasına, təmizlənməsinə fikir verilməlidir. Yaşayış binalarının birinci mərtəbəsində, zirzəmisində tezalışan və yanar mayelərin saxlanılması, istənilən müəssisələrin, emalatxanaların və digər obyektlərin fəaliyyət göstərməsi, pilləkən qəfəslərində və dəhlizlərdə əl damlarının yaradılması, eləcə də pilləkən marşları altında və onların meydançalarında ev əşyalarının yığılması qadağandır.

Hündürmərtəbəli yaşayış binalarının mərtəbələrində yanğına qarşı daxili yanğın su kranlarını şlanqlarla, birləşdirici başlıq və lülələrlə təchizini, su təzyiqini qaldırmaq üçün nəzərdə tutulmuş nasosxanaların,avtomatik yanğınxəbərverici siqnalizasiya sisteminin, tüstüqovucu və ventillyasiya sistemlərinin işlək vəziyyətdə olması təmin edilməlidir.

Qəsəbə və kənd yaşayış məntəqələrində, fərdi həyətyanı sahələrdə də quru otların daşınması, yığılması, sobalardan istifadə zamanı yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət olunmasına da ciddi diqqət yetirilməlidir.

Bütün bunlar isə əlbəttə ki, mənzillərdə, fərdi yaşayış sahələrində yanğınların baş verməməsinə və hadisə zamanı insan itkisinin qarşısının alınmasına xidmət edir.

**FHN DYNX-nin**
**MUĞAN REGİONAL DÖVLƏT YANĞIN NƏZARƏTİ İDARƏSİ**

# Neftçala rayonunda Ədliyyə işçilərinin peşə bayramı qeyd olundu

1⟵ RİH-in başçısı qeyd edib ki, Vətən müharibəsindəki Böyük Qələbəmizdən dərhal sonra Qarabağ Regional Ədliyyə İdarəsi yaradılaraq azad edilən ərazilərimizdə ədliyyə fəaliyyətinin bərpası, təşkili və əlaqələndirilməsi işi onun yurisdiksiyasına aid edilir. Hazırda Ədliyyə sisteminin davamlı inkişafı üzrə aparılan genişmiqyaslı islahatlar mütərəqqi kadr siyasətinin həyata keçirilməsi ilə müşayiət olunur. Dövlət gənclər siyasətinə uyğun olaraq ədliyyə orqanlarında kadrlarla işin səmərəli təşkilinə, gənclərin işlə təminatına xüsusi önəm verilir. Bu gün xalqımızın taleyi etibarlı əldədir və sabaha, gələcəyə olan inamı yüksəkdir. Respublikamızın hərtərəfli tərəqqisi, ölkə həyatının bütün sahələrində qazanılan möhtəşəm nailiyyətlər, tarixi qələbələr hər bir azərbaycanlıda yüksək iftixar hissi doğurur. Bu dövrdə imzalanan əfv fərmanı və sərəncamları, dövlət başçısının və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunan amnistiya aktları ilə on minlərlə məhkum bağışlanaraq azadlığa, ailələrinə və yaxınlarına qovuşublar. Prezident cənab İlham Əliyevin Ümummilli Lider Heydər Əliyevin 100 illiyi münasibətilə imzaladığı müstəqillik dövrümüzün ən böyük əfv aktını buna misal göstərə bilərik. RİH-in başçısı ədliyyə işçilərini peşə bayramları münasibətilə səmimi qəlbdən təbrik edib və peşə fəaliyyətlərində uğurlar arzu edib.

Çıxış edən Neftçala rayon Məhkəməsinin sədri Ceyhun Qədimov, Neftçala Rayon Qeydiyyat şöbəsinin müdiri Tural Qafarlı, Neftçala İcra və Probasiya şöbəsinin böyük icra məmuru Ramin Aslanov, Neftçala İcra və Probasiya şöbəsinin probasiya üzrə böyük icra məmuru Abdulhüseynov Məzahir və Bakı Dövlət Universitetinin hüquq fakültəsinin tələbəsi Fidan İbrahimbəyli Azərbaycan ədliyyəsinin ötən dövrdəki inkişaf yolundan, xüsusilə, Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin bütün dövrlərində bu sahəyə göstərdiyi diqqət və qayğısından, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyə və məhkəmə sistemində aparılan uğurlu islahatlardan danışıblar və ədliyyə işçilərini peşə bayramları münasibətilə təbrik ediblər.

Görüşün sonunda səmərəli fəaliyyətlərinə görə ədliyyə orqanlarının bir qrup əməkdaşlarına Neftçala Rayon İcra Hakimiyyəti başçısının fəxri fərmanları təqdim olunub.

# SƏYYAR GÖRÜŞLƏR ƏHALİNİN RİFAHINA XİDMƏT EDİR



Əhalinin tələb və təkliflərinin öyrənilməsi, çətinliklərin aradan qaldırılması, ictimai münasibətlərin nizamlanması istiqamətində keçirilən səyyar görüşlər noyabr ayında da davam etmişdir. Belə ki, 7 noyabr 2024-cü ildə Neftçala rayonunun Yuxarı Qaramanlı kəndində, 15 noyabr tarixində Kürqarabucaq kəndində, 22 noyabr tarixində Xanməmmədli və Ramazanlı kəndlərində sakinlərlə səyyar görüşlər təşkil edilmişdir. Ay ərzində təşkil olunan vətəndaş qəbulunda Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq - mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, şəhid ailələri, qazilər və kənd sakinləri iştirak edib. Görüşdə Ulu Öndər Heydər Əliyevin, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların ruhu bir dəqiqəlik sükutla yad olunub. Çıxış edənlər Yuxarı Qaramanlı kəndində "Zəfər günü Azərbaycan tarixinin ən parlaq səhifələrindən biridir", Kürqarabucaq kəndində "Ölkə Konstitusiyasının qəbulu Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı ən böyük xidmətlərindəndir" mövzusunda, Xanməmmədli və Ramazanlı kəndlərində "Azərbaycan dünya dövlətlərinə tolerantlıq örnəyidir" mövzusunda görüş iştirakçılarına məlumat verilib. Səyyar qəbul zamanı vətəndaşlar elektrik təsərrüfatının yenilənməsi, kənddaxili yolun təmiri, yeni çəkiləcək beton kanaldan evlərə fərdi olaraq suyun verilməsi və digər məsələlər ilə əlaqədar müraciətlərini səsləndiriblər. Vətəndaşların səsləndirdikləri müraciətlər ayrı-ayrılıqda dinlənilib, məsələlər müzakirə olunub və həlli istiqamətində tapşırıqlar verilib. Vətəndaşlar göstərilən yüksək diqqət və qayğıya, rayon ərazisində aparılan abadlıq- quruculuq işlərinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər. Səyyar görüşdə bildirilib ki, vətəndaşlar Neftçala Rayon İcra Hakimiyyəti ilə həm onlayn, həm də yerində görüşlər üçün yaradılan **"Rəqəmsal İcra Hakimiyyəti" https://rih.gov.az portalına daxil olmaqla müraciət imkanı əldə edə bilərlər.**



# FUTBOL BİRİNCİLİYİNİN FİNAL GÖRÜŞÜ



***Neftçala Rayon İcra Hakimiyyətinin təşəbbüsü və dəstəyi, Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin Neftçala rayonu üzrə gənclər və idman sektorunun təşkilatçılığı ilə "8 Noyabr - Zəfər Günü" münasibətilə RİH Başçısının şəhər, qəsəbə və kənd inzibati ərazi dairələri üzrə nümayəndəlikləri arasında futbol idman növü üzrə rayon birinciliyinin final görüşü keçirilib. Final görüşündə Neftçala Rayon İcra Hakimiyyətinin Başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq- mühafizə orqanlarının, idarə, müəssisə, təşkilat rəhbərləri, rayon ictimaiyyəti və gənclər iştirak edib.***

***Final mərhələsində Sarıqamış FK və Bankə FK qarşılaşıb. Bankə FK komandası qalib gələrək birinci yerin qalibi olub. 2-ci yerin qalibi Sarıqamış FK və 3-cü yerin sahibi Həsnəbad FK olub. Qalib komandalar fəxri fərmanlar və medallarla təltif olunublar, sonda komandalarla xatirə fotosu çəkilib.***

***Gənclərin idman sahəsində marağı sevindiricidir, onların asudə vaxtlarının səmərəli olmasına xidmət edir. Belə təşəbbüslər isə hər zaman alqışlanır.***



# Unudulmayan yaddaş - Qarakənd faciəsi




Qan yaddaşımızın heç zaman unudulmayan səhifələrindəndir Qarakənd faciəsi. Bizdən uzaq düşsələr də heç zaman unutmayacağımız yurddaşlarımız üçün ötənləri yad edirik, tam otuz üç il arxaya baxırıq. Qaytara bilmədiyimiz fədailərimizi, qarşısını ala bilmədiyimiz bu faciəni necə unutmaq olar? Bəzən deyirlər ki, həqiqət gec-tez aydınlanır, üzə çıxır. Lakin bəzən xəyanəti törədənlərin məkri o qədər dərinlikləri əhatə edir, qarışıq düyünlər salır ki... həqiqəti aşkarlamaqdan da uzaqlaşır insan. Nə qədər fanilik var həyatın axarında... Xain düşmən, "Qarı düşmən dost olmaz!" ifadəsini heç zaman unutmamalıyıq.

İllərlə, əsrlərlə, tarixin bütün mərhələlərində yurdumuza xain gözü ilə yaxınlaşanlar yalnız hiylə torları ilə müvəqqəti də olsa "qalib" ola biliblər. Xalqımıza məxsus hər bir sərvəti mənimsəmək istəyənlərin zəhərli planlarında daim zəka sahiblərini də məhv etmək əsas niyyət olub. Bu xəyanətin cavabını, Qarakənd faciəsi ilə yanaşı nə qədər qanlı terrorlar törətmiş mənfur düşmənin layiq olduğu yeri Vətən müharibəsində Azərbaycanın mərd oğulları qətiyyətlə verdi. Bu gün bütün şəhidlərimizin ruhu az da olsa vətənimizin aydın səhərindən işıqlanar, sevinər. Azaddır ellərimiz, üçrəngli bayrağımız minlərlə məğrur vətən oğullarının qanı bahasına vüqarla dalğalanır. Bu vüqarda bu torpağa sahiblik səsi var, Xalq şairimiz Bəxtiyar Vahabzadənin sözləri ilə desək "Mənliyimiz, kimliyimiz" var!

Qarakənd faciəsi və ya 20 noyabr faciəsi adı ilə yaddaşımıza əbədi yazılan bu tarix 1991-ci il 20 noyabr tarixində Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında, Ağdam rayonunun Mərzili kəndi ərazisində baş vermişdir. Erməni hərbi dəstələri tərəfindən vurulan Qarakənd üzərində üç yüz metr yüksəklikdə uçan Azərbaycan hərbi Mİ-8 N72 helikopteri vurulmuşdur. Verilmiş məlumatlara əsasən, Mİ-8 N72 helikopteri 1991-ci il noyabrın 20-də saat 14:42 dəqiqədə vurulub. Faciə haqqında ilkin məlumat Prezident Aparatına saat 19:55-də çatıb, lakin bu faciə haqqında xəbər Xankəndidən erməni dilində yayımlanan "Vətən və vətəndaş" verilişinin xəbərlər bölümündə, saat 15:30-da yayımlanmışdı. Həmin gün Ermənistanın ictimai radiosu saat 16:15-də həmin xəbərin "qəza" kimi şərhini verdi. Saat 16:40-da Tehran radiosu, 17:00-da Moskva radiosu açıqladı.

Həlak olanlar arasında Azərbaycan Respublikasının Dövlət katibi Tofiq İsmayılov, baş prokuror İsmət Qayıbov, dövlət müşaviri, sabiq Daxili İşlər naziri Məhəmməd Əsədov, millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov, baş nazirin müavini Zülfü Hacıyev, Prezident Aparatının şöbə müdiri və jurnalist Osman Mirzəyev, Qazaxıstan Respublikası Daxili İşlər nazirinin müavini Saylau Serikov, Azərbaycan Dövlət Televiziyasının jurnalisti Alı Mustafayev var idi. Ümumilikdə qəza nəticəsində 22 nəfər həlak olub.

İlkin olaraq Azərbaycanın nümayəndə heyətinin məlumatına görə, cəsədlərdən 12-si tam şəkildə tanınırdı, 3-cü qismən tanınırdı, qalanlarının şəxsiyyəti isə ekspertiza nəticəsində müəyyən edildi. İsmət Qayıbovun oğlu İsmayıl Qayıbovun sözlərinə görə, ilk və son dəfə onun atası ailə üzvlərinə vida etməmişdi. İsmət Qayıbovun geyindiyi pencəyin cibində isə Ömər Xəyyamın rübaisi var idi...

Otuz üç il keçsə də tarix ağrılı səhifələri ilə "Unutma!"- deyir. Azərbaycanımızın qan yaddaşının hər bir səhifəsi dünənimizdir. Biz onları heç zaman unutmayacağıq. Ruhları şad olsun.

***Niftaliyeva B.***

# “Poliqon” gənclərin hərbi-vətənpərvərlik düşərgəsi tədbirinə start verilib



**01 Noyabr 2024-cü il tarixdə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin təşkilatçılığı, Neftçala Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Neftçala Olimpiya İdman Kompleksində növbəti “Poliqon” gənclərin hərbi-vətənpərvərlik düşərgəsi tədbiri start götürüb. Tədbir 01-03 noyabr 2024-cü il tarixlərində "Zəfər Günü" ərəfəsində həyata keçirilmişdir. Düşərgəyə Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialının 70 nəfər tələbəsi cəlb olunmuşdur.**

**Açılış mərasimində Neftçala Rayon İcra Hakimiyyətinin, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin, Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin Neftçala rayonu üzrə gənclər və idman sektorunun, Neftçala Olimpiya İdman Kompleksinin əməkdaşları, gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər.**

**Tədbirdə çıxış edənlər ölkəmizdə həyata keçirilən uğurlu gənclər siyasətindən, vətənpərvər gənc nəslin yetişdirilməsi ilə bağlı təşkil olunan tədbirlərdən, Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Zəfərimizdə xidmətləri olan gənclərimizin qəhrəmanlıqlarından geniş bəhs etdilər, tədbir iştirakçıları gənc nəslə göstərilən diqqət və qayğıya, onların hərtərəfli inkişafının təmin olunması istiqamətində yaratdıqları şəraitə görə ölkə başçısı Cənab İlham Əliyevə və ölkənin Birinci xanımı Mehriban xanım Əliyevaya öz dərin təşəkkürlərini bildirdilər.**

**Gənclərdə vətənpərvərlik ruhunu daha da artırmaq, onları sağlam həyat tərzinə cəlb etmək, şanlı Zəfər tarixini təbliğ etmək məqsədi ilə keçirilən düşərgədə Qarabağ qazilərinin iştirakı ilə hərbi təlimlərin, müxtəlif idman oyunlarının, intellektual yarışların keçirilməsi, yaradıcı gənclərin ifasında musiqilərin səsləndirilməsi nəzərdə tutulub.**

# Bu yurdumun hər qarışı---VƏTƏNDİR!

25 noyabr Kəlbəcər rayonunun azad olduğu gün kimi yazıldı tariximizə. İndi Azərbaycanımızın hər bir guşəsində vüqarla dalğalanan üçrəngli bayrağımız xalqımızın azadlıq arzusunun, yurdsevərliyinin, qəhrəman şəhidlərimizin, qazilərimizin vətənsevərliyinin ən şərəfli tarixidir. Bu tariximizi sevərək yaşatmaq, öyrənərək təbliğ etmək hər birimizin yurddaş olaraq borcumuzdur. Əsrlərlə talan edilən, ən yaxın tariximizdə vandalcasına mənfur düşmənin istismarına məruz qalan torpağımız sinəsində min bir yarası ilə sərvətlərini qorumuşdur. Ulu Tanrının xalqımıza bəxş etdiyi bu əsrarəngiz vətən torpağında sərvətlərimiz tükənməzdir. Onlara qarşı hər birimiz qayğı ilə yanaşaraq gələcək üçün qorumağa çalışmalıyıq.

Üçtərəfli Bəyanata əsasən, 2020-ci il noyabrın 25-də Kəlbəcər şəhəri də daxil olmaqla, rayonun 147 yaşayış məntəqəsi işğaldan azad edildi. 25 noyabr - Prezident İlham Əliyevin 2023-cü il iyulun 31-də imzaladığı Sərəncama əsasən Kəlbəcər Şəhəri Günü kimi qeyd olunur.

Kəlbəcər rayonu haqqında nə bilirik deyə geniş bir tarixi-coğrafi zənginliyə malik yurd yerimizin seyrinə çıxdıq. Düşüncələrimizi yeniləyərək vətənimizin bu gözəl məkanını bir daha öyrənməyə çalışdıq.1993-cü ilin 2 aprel tarixindən, işğala məruz qaldığı, yad nəfəsdə talan edildiyi o müdhiş günlər arxada qaldı.Lakin işğal nəticəsində 53 min 340 sakinin öz dədə-baba yurdundan qovulması, 511 dinc sakinin öldürülməsi, 321 nəfərin əsir və itkin düşməsi tariximizin qan yaddaşı olaraq ağrılı yurd səhifəsinə yazıldı. 484 nəfərə qədər şəhidi olan Kəlbəcər rayonunun da digər işğala məruz qalan ərazilərimiz kimi ağrılı taleyi heç zaman unudulmayacaqdır. Vətən müharibəsində rayonun 37 sakini şəhid olub. Kəlbəcərdən olan 3 döyüşçü Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

İşğal nəticəsində rayonun bütün yaşayış məntəqələri, 13 minədək fərdi mənzil talan edilib, 87 tarixi abidə, 1 muzey, 97 məktəb, 9 uşaq bağçası, 116 kitabxana, 43 klub, 42 mədəniyyət evini, tarix-diyarşünaslıq muzeyini, 9 xəstəxananı, 75 tibb məntəqəsi, 23 ambulatoriya, 9 aptek, yüzlərlə inzibati bina, çoxlu sayda texnikanı talan edib, dağıdıb və rayonun milyardlarla manatlıq sərvətini Ermənistana daşıyıblar. Rayona 761 milyon ABŞ dolları məbləğində ziyan dəyib.

Dağlar qoynunda yerləşən Kəlbəcər başdan-başa canlı təbiət muzeyini xatırladır. Təkcə bir faktı göstərmək kifayətdir ki, rayon ərazisində üç mindən artıq bulaq var, 4 mindən artıq bitki növü bitir və onlardan 200-ü dərman




bitkisidir. Kəlbəcər Azərbaycanın ən yüksək dağ rayonudur. Ən hündür zirvələri Camışdağ dağındakı zirvə (3724 m) və Dəlidağdır (3616 m). Ərazinin çox hissəsi meşəlikdir. Kəlbəcər qərbdə Ermənistan Respublikası, şimalda Daşkəsən, Göy-Göl, Goranboy, şimali-şərqdə Tərtər, şərqdə Ağdam, Xocalı, cənubda Laçın rayonları ilə həmsərhəddir. Kəlbəcər rayonu faydalı qazıntılarla, o cümlədən qızıl, xrom yataqları ilə zəngindir. Sənaye əhəmiyyəti olan civə ehtiyatları Kəlbəcər rayonundakı Şorbulaq və Ağyataqda yerləşir. Alagöllər, Qaragöl, Zalxa gölü və s. gölləri var. Rayonda əsasən çimli dağ-çəmən və qonur dağ-meşə torpaqları yayılmışdır. Meşələrin ümumi sahəsi 30 min hektara yaxındır. Kəlbəcərdə həzm sistemi xəstəliklərinin əvəzsiz müalicəsi hesab olunan zəngin mineral tərkibə malik olan İstisu müalicə ocağı yerləşir. İstisu mineral bulaqları 1138-ci ildə güclü zəlzələ zamanı yerin qabarması, çatlaması nəticəsində əmələ gəlib. İstisu mineral suları hipertermal, karbon qazlı, hidrokarbonatlı-xloridli-sulfatlı-natriumludur və daim çağlayan 12 bulaqdan ibarətdir.

# DÜNYANI DƏRK EDƏRƏK YAZAN MÜDRİKLƏRİN SÖZ ÇEŞMƏSİ...

*Elə yaşamalısan ki, öləndən sonra da ölməyəsən - həyatın məqsədi məhz budur. (Cəlil Məmmədquluzadə)*

*Faydasız həyat - vaxtsız ölümə bərabərdir. (İohann Volfqanq Göte)*

*Görmək və hiss etmək - mövcud olmaq, düşünmək isə yaşamaq deməkdir. (Uilyam Şekspir)*

*Hər gün insan üçün yeni bir həyatdır. (R.Beyker)*

*Həyat — bu sonsuz mükəmməlləşdirmədir. Özünü mükəmməl hesab etmək isə-özünü öldürməkdir. (Georq Vilhelm Fridrix Hegel)*

*Həyat avtomobil idarə etmək kimi bir şeydir-nə qədər diqqətli və təcrübəli olsan da, qəzaya uğramaq ehtimalı həmişə var. (A.L.Stal)*

*Həyat nə tamaşa, nə də bayramdır. Həyat çətin bir imtahandır. (Santayana)*

*Həyat şərtləri çətindir, ancaq bu barədə çox düşünsən, bədbinləşə bilərsən. (Fridrix Nitsşe)*

*Həyat yuxuda da öz sonuna doğru gedir. (A.Bule)*

*Həyatda vaxt öldürmək özünü öldürmək deməkdir. (C.Pekk)*

*Həyatdan zövq almaq üçün qarşıda bir məqsəd olmalıdır. (Ç.Kolton)*

*Həyatın iki faciəsi var: biri arzumuza çata bilməmək, digəri isə istədiyimizi əldə etməkdir. (C.Vatson)*

*İnsanın həyatinda cəmi üç böyük hadisə var: doğulmaq, yaşamaq və ölmək. O necə doğulduğunu hiss etmir,insan kimi yaşamağı unudur və əzablar içində ölür. (Jan de Labrüyer)*

*Kişilər həyatı çox tez, qadınlar isə çox gec dərk edirlər. (Oskar Uayld)*

*Mən əminəm ki, biz həyata əylənmək üçün deyil, öyrənmək üçün gəlmişik. (C.Robertson)*

*Mən həyatın mənasını yorulmadan işləməkdə və çətinliklərlə döyüşməkdə görürəm. (A.Bek)*

*Müdrik əcdadlarımızdan miras qalmış üç şeyi sizə vəsiyyət edirəm: - ana dilimizi - vicdanımızı - Vətənimizi. (Şah İsmayıl Xətai)*

*Müdrik insan ölüm haqqında deyil, həyat haqqında düşünməlidir. (Benedikt Spinoza)*

**Baş redaktor**
B.H. NİFTALİYEVA

ÜNVAN:Neftçala şəhəri, H. Əliyev prospekti 38
Telefon:(021) 26-3-44-03
VÖEN:6500044671
AZ95AIIB33080019446400258164

Qəzet “Gündoğar”ın redaksiyasında yığılıb, səhifələnib, “AZƏRMedia” mətbəəsində çap olunmuşdur. Tiraj:250